***Yeni Azərbaycan Partiyasının VII qurultayında Azərbaycan Prezidenti, YAP Sədri cənab İlham Əliyevin konseptual çıxışı çağdaş siyasi tariximizdə taleyüklü hadisəyə çevrilməklə yanaşı, həm də haqlı olaraq, son günlərin siyasi gündəminin əsas mövzusunu təşkil edir. Bu qurultay ona görə tarixi hadisə hesab olunur ki, burada qəbul olunan qərarlar Azərbaycan Prezidenti İlham Əliyevin dövlət idarəetməsində və siyasi münasibətlərdə gerçəkləşdirdiyi islahatlar silsiləsinin uğurlu davamına təkan verdi.***

# Siyasi birliyi və vətəndaş həmrəyliyini ümummilli platformaya çevirən qurultay



Partiyada baş vermiş yeniliklər və struktur dəyişikliyi Vətən müharibəsində əldə etdiyimiz tarixi qələbənin nəticələrini, ictimai-siyasi sabitliyi və milli birliyi sona qədər qorumaq və torpaqlarımızı işğaldan azad etdikdən sonra yaranmış yeni reallıqda bu üstünlükləri daha da möhkəmləndirmək zərurətindən qaynaqlanırdı. Qurultayda cəmiyyətin növbəti inkişafı ilə bağlı bəyan edilən nəzəri-praktik mülahizələr, qəbul edilən önəmli qərarlar, daxili və xarici aləmə ünvanlanmış ciddi mesajlar Azərbaycanın siyasi həyatına aydınlıq, hədəf konkretliyi və yeni dinamizm gətirdi.

Yeni dövrün əsas göstəriciləri sırasında digər amillərlə yanaşı, siyasi dialoqun və cəmiyyətin ictumai-siyasi qurumları arasında sivil münasibətlərin ön plana çıxması dövlət başçısının bundan sonra ölkə daxilində həyata keçirəcəyi siyasətin yeni konturları kimi qiymətləndirilməlidir. Məlumdur ki, bu amillər Azərbaycanın milli maraqlarının etibarlı şəkildə qorunması və strateji hədəflərinə çatması üçün olduqca zəruridir.

Bugünkü siyasi dialoqun üstünlüyü və unikallığı ondadır ki, bu həmrəyliyin müəllifi Azərbaycan Prezidentidir, onu dəstəkləyən isə ölkədə fəaliyyət göstərən əksər siyasi partiyalar və vətəndaş cəmiyyəti qurumlarıdır. Azərbaycan tarixində belə bir siyasi dialoqun ilk dəfə baş tutmasının səbəbi həm də odur ki, bu proses heç bir kənar müdaxilə olmadan, xarici ölkələrin və ya beynəlxalq qurumların ssenarisi olmadan həyata keçirilir, sosial sifariş kimi hamı tərəfindən qəbul olunur. Məhz bu yanaşma öllkəmizdə demokratiyanın inkişafına, iqtisadi azadlıqların daha da genişlənməsinə nail olmaq və qarşımızda duran milli vəzifələrin öhdəsindən layiqincə gəlmək üçün hakimiyyətə əlavə güc və stimul verir.

Bu birlik 30 ildən bəri pozulmuş ərazi bütövlüyümüzün bərpa edilməsində ümummilli cəbhəyə çevrildi. Qarabağ savaşında qazandığımız tarixi qələbə isə, öz növbəsində, bu birliyin möhtəşəmliyini sübut etməklə onu daha da möhkəmləndirdi. Nəticədə, biz milli həmrəyliyin və siyasi konsensusun yeni mərhələsinin şahidi olduq.

Ölkədə əldə edilmiş ictimai-siyasi təmərküzləşmənin sevindirici təzahürüdür ki, YAP-ın bu qurultayda 6 siyasi partiya indiki məram ortaqlığı və gələcək fəaliyyətləri ilə hakim partiyanın siyasi hədəfləri arasında heç bir fərq görmədiyinə görə YAP-a birləşdi. QHT sektorunda, siyasi-ictimai və mədəni mühitdə formalaşmış şəxslər YAP-ın İdarə Heyətində yer aldılar. Bugünlərdə Azərbaycanın ən nüfuzlu və qocaman hüquq müdafiəçilərinin "Şöhrət" ordeni ilə təltif olunması da onların milli həmrəyliyə və cəmiyyətin demokratikləşdirilməsinə verdikləri töhfənin dövlət səviyyəsində dəyərləndirilməsi və təşviqi oldu.

Bütün bunlar ölkəni vaxtilə dağılmaqdan və məhv olmaqdan xilas edən ümummilli lider Heydər Əliyevin dövlətçilik məfkurəsinin layiqli davamçısı olan cənab İlham Əliyevin müasirləşdirdiyi, inkişaf etdirdiyi və bütövləşdirdiyi Azərbaycanın çatdığı tarixi səviyyənin uğurlarıdır. Bu tarixi nailiyyətlər həm də ulu öndərin yaratdığı yeni tipli partiyaya son 18 ildə liderlik edən, onun qurduğu müstəqil dövləti məharətlə idarə edən Prerzident İlham Əliyevin yön və məzmun verdiyi yeni siyasi münasibətlər sisteminin önəmindən və prinsipial xarakter daşımasından xəbər verir.

Şübhəsiz, cəmiyyətin hakim və öncül partiyası olan YAP-ın qurultayının ölkənin ictimai-siyasi həyatına gətirdiyi yeniliklər və novator addımlar müstəqil Azərbaycanın daha da güclü olmasını təmin edəcək və beynəlxalq aləmdə ölkəmizin daha çox nüfuz və etimad qazanması üçün yeni imkanlar yaradacaq.

***Azay QULİYEV,***
***Milli Məclisin deputatı***